**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: Təmimi
Göndərilmə nömrəsi: 5/16-1011 6/01/17 Tarix: 26.04.17.
Sənəd necə göndərilir: Elektron poçt
Səhifələrin sayı 2 Əlavə olunur:________________
Məhdudluğu qrifi: Adi
Təcililiyi: Adi
Vacibliyi: Vacib
Dip. Missiyanın: ________№-li ________tarixli məktubuna cavab.

**Azərbaycan Respublikasının**
**bütün diplomatik nümayəndəlik**
**və konsulluq rəhbərlərinə**

"Büdcə vəsaitlərinin səmərəli istifadəsinə və maliyyə nizam-intizamının gücləndirilməsinə dair"

**Hörmətli diplomatik nümayəndəlik və konsulluq rəhbərləri,**

Dövlət büdcəsinin vəsaitlərindən səmərəli istifadə olunması, idarəetmə xərclərinin optimallaşdırılması diplomatik xidmət orqanlarının saxlanılması üçün ayrılan vəsaitlərdən qənaətlə istifadəni zəruri edir.

Bununla bağlı, hər bir diplomatik nümayəndəlik tərəfindən ona ayrılan maliyyə vəsaitlərindən səmərəli və qənaətlə istifadə edilməli, xərclərinin azaldılması istiqamətində mühüm addımlar atılmalı və maliyyə intizamına ciddi riayət olunmalıdır.

Aidiyyəti dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının bir sıra diplomatik nümayəndəliklərində maliyyə-təsərrüfat fəaliyyətinin auditi həyata keçirilmiş və nəticədə bir sıra nöqsanlara yol verildiyi aşkar olunmuşdur.

Qeyd edilənlərlə bağlı, diplomatik nümayəndəlik və konsulluqların rəhbərlərindən aşağıda qeyd olunanlara ciddi riayət etmələri tələb olunur:

1. Diplomatik nümayəndəliyin rəhbərinin iqamətgahının kommunal və kommunikasiya xidmətlərinin diplomatik nümayəndəliyin saxlanılması xərcləri hesabına ödənilməsinə yol verilməsin;

2. Bir sıra xərc maddələri üzrə istifadə edilməmiş vəsaitlər digər xərc maddələrinə yönəldilməsin. Zərurət yarandıqda vəsaitlərin təyinatının dəyişdirilməsi normativ hüquqi aktların tələblərinə uyğun aparılsın. Əks halda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 410-cu və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308-1-ci maddələrinə əsasən dövlət büdcəsi vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi hallarının inzibati xəta və cinayət tərkibi yaratdığı nəzərə alınsın;

3. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vahid büdcə təsnifatı"nın tələblərinə ciddi əməl edilməklə ayrılmış büdcə vəsaitləri yalnız təsdiq olunmuş xərclər smetasında müəyyən edilən xərc maddələrinə uyğun istifadə edilsin;

4. Nəqliyyat vasitələrinin satışından əldə edilən vəsaitlərin dövlət büdcəsinə köçürülməsi təmin edilsin;

5. Geri alınan əlavə dəyər vergisi üzrə vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin edilsin;

6. Xərclər smetasında nəzərdə tutulmayan xərclərin həyata keçirilməsinə yol verilməsin;

7. Ziyafətlərin keçirilməsi və hədiyyələrin alınmasına böyük məbləğdə büdcə vəsaiti sərf olunmasın;

8. İlin sonuna istifadə olunmayan qalıq vəsaitin ilkin mənbəyə qaytarılması təmin edilsin;

9. Diplomatik nümayəndəlikdə tibbi sığorta zərfi mövcud olduğu halda, digər tibbi xidmətlərdən istifadə xərclərinin büdcə vəsaitindən ödənilməsinə yol verilməsin;

10. Toplanmış dövlət rüsumunun növbəti ayın ilk 5 iş günü ərzində büdcəyə köçürülməsi təmin edilsin və toplanmış dövlət rüsumunun diplomatik nümayəndəliyin saxlanılması xərclərinə istifadə edilməsinə yol verilməsin;

11. Büdcə vəsaitindən digər xərclərin ödənilməsinə yol verilməsin;

12. Xərc maddələri üzrə yaranmış debitor və kreditor borcun bağlanılması istiqamətində təxirəsalınmaz tədbirlər görülsün.

13. Diplomatik nümayəndəliyə ayrılan maliyyə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsinə görə vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Hörmətlə,**



**Nazir** **Elmar Məmmədyarov**